AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU

# HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİ VƏ AZƏRBAYCANÇILIQ

*(III kitab)*

*Toplu AMEA Fəlsəfə və Sosiologiya İnstitutu "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsində hazırlanmış, Fəlsəfə və Sosiologiya İnstitutu Elmi Şurasının 2021-ci il 14 dekabr tarixli, 2 saylı iclasının qərarı ilə çapa məsləhət görülmüşdür.*

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2021

**Elmi redaktor:** **İlham Məmmədzadə**
*fəlsəfə elmləri doktoru, professor,*
*AMEA Fəlsəfə və Sosiologiya*
*İnstitutunun direktoru*

**Redaktorlar:** **Eynulla Mədətli**
*tarix elmləri doktoru*

**Sənan Həsənov**
*siyasi elmlər üzrə fəlsəfə*
*doktoru, dosent*

**Məsul katib:** **Telman Quliyev**
*elmi işçi*

*Topluda müdrik siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin siyasi irsinin müəyyən məqamları araşdırılır. Bu irsdəki milli kimlik, milli-mənəvi dəyərlər, azərbaycançılıq ideologiyası, dövlət quruculuğunda tarixi və sosial yaddaş, dil və siyasət məsələləri, etik prinsiplər və dövlətçiliyimizi gücləndirən digər amillər müxtəlif istiqamətlərdən olan elmi mənbələrlə təhlil olunaraq geniş oxucu dairəsinə təqdim edilir.*

**ISBN:978-9952-372-39-4**

# MÜNDƏRİCAT

**Eynulla Mədətli**
Heydər Əliyevin "Bir millət – iki dövlət" formulu siyasi varislik təcrübəsində ........ 5

**Rəna Mirzəzadə**
Azərbaycanın Birinci vitse-prezidenti Xanım Mehriban Əliyevanın Ulu Öndər Heydər Əliyev haqqında xatirələrindən........ 28

**Ziba Ağayeva**
Vətənpərvərlik azərbaycançılığın ideoloji əsası kimi ........ 33

**Füzuli Qurbanov**
Üçüncü Respublika: "Bir millət, iki dövlət" formulu kontekstində fəlsəfi analiz........ 50

**Azər Mustafayev**
Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideyaları müasir çağırışların həlli müstəvisində........ 77

**Seymur Talıbov**
Cənubi Qafqaz postmünaqişə mərhələsində: regional təhlükəsizlik və liderliyin qarşılıqlı əlaqəsi fonunda ........ 83

**Sənan Həsənov**
Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq: reallaşan hədəflərə konseptual baxış........ 98

**Nurulla Əliyev**
Dövlətin milli maraqların müdafiəsində və onun təhlükəsizliyin təminatında Azərbaycan Prezidenti İlham Əliyevin rolu ........ 111

**Mehman Süleymanov**
İlham Əliyev Zəfərinin dünya hərb məharəti təcrübəsinin inkişafında rolu ........ 137

**Məmmədağa Sərdarov**
Vətən müharibəsindəki qələbəmizdə Azərbaycanda yaşayan bütün xalqların sarsılmaz birliyinin rolu ................ 155

**Əli İbrahimov**
Heydər Əliyevin azərbaycançılıq təlimi Vətən müharibəsində qələbənin rəhni kimi ................................................ 166

**Günel Məlikli**
Prezident İlham Əliyev – alternativsiz lider, qüdrətli sərkərdə ........................................................................ 180

**Əntiqə Paşayeva**
Ulu Öndər Heydər Əliyevin kəlamlarında qanun və qanunçuluğun etik xüsusiyyətləri.................................. 190

**Elnur Hacəliyev**
44 Günlük Vətən müharibəsindəki tarixi Qələbəmiz Heydər Əliyev siyasi ideologiyasının təntənəsidir............... 204

**Telman Quliyev**
Azərbaycanin enerji siyasətində "yaşil enerji" amili................213

**Ülviyyə Quliyeva**
Mədəniyyətlərarası əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolu ................................................................ 224

**Səkinə Əliyeva**
Heydər Əliyevin nitqində və müsahibələrində publisistik üslub .................................................................................. 231

**Ceyran Hüseynli**
Heydər Əliyev və Azərbaycanda qadın siyasətinin uğurları ............................................................................. 237

**Bahtiyar Ersoy**
Heydər Əliyev Qafqaz İslam Ordusu hərəkatı haqqında ...... 244

**Eynulla Mədətli**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*icraçı direktoru, tarix elmləri doktoru*
***emadatli@gmail.com***

# HEYDƏR ƏLİYEVİN "BİR MİLLƏT – İKİ DÖVLƏT" FORMULU SİYASİ VARİSLİK TƏCRÜBƏSİNDƏ

Ulu öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğunda ənənə ilə müasirliyin ən səmərəli nisbətini milli maraqlar çərçivəsində müəyyən etdiyini tam anlamı ilə dərk etmək üçün, onun yeganə şəxs olaraq İkinci Respublikadan Üçüncü Respublikaya siyasi, mənəvi və ideoloji keçidin təminedicisi olduğunu dərk etmək gərəkdir. O da çox önəmlidir ki, məhz Heydər Əliyev nəzəri biliklə yanaşı, praktiki və uzunmüddətli siyasi fəaliyyəti vasitəsi ilə də Birinci Respublikanın başlıca tezislərini ən mürəkkəb və ziddiyyətli geosiyasi və siyasi şəraitdə həm qoruyub, həm də həyata keçirməyə çalışmışdır.

Heydər Əliyev öz praktiki siyasi fəaliyyətində Azərbaycan dilinin dövlət dili kimi statusunu təmin etməklə Birinci Respublikanın dövlət dili seçimini qoruya bildi. Sonra, Heydər Əliyev sovetlərin ən möhkəm dövründə belə Azərbaycanda siyasi institutlaşmanı "Azərbaycanlaşdıra" bildi. Burada Azərbaycanlaşdırma məcazi və dərin fəlsəfi mənada işləndiyindən dırnağa alınıb. Yəni, məsələ heç də qan və etnik mənsubluğa görə kadrların yetişdirilməsi və idarəetmə strukturlarında qanı türk olanların sayının artırılması ilə bağlı deyildi. Heydər Əliyev zərgər dəqiqliyi ilə Azərbaycanda yaşayan hər bir etnik mənsubun nümayəndələrini "azərbaycanlaşdırırdı". Yəni Vətənə, Xalqa, Azərbaycan SSR-ə sədaqət ruhu aşılayırdı. Onlar ancaq bu mənada millləşir və, deməli, "Azərbaycanlaşırdılar". O dövr üçün çox səmərəli, perspektivli, gələcək sosial özünütəşkiletmə və Vətənçilik ruhunun tərbiyəsi baxımından üsul idi. Heydər Əliyev kadr və idarəetmə məsələsində bununla kifayətlənməməklə də bir daha

dövlət quruculuğunda strateji olaraq saf milli niyyətli olduğunu sübut etdi. Konkret desək, Ulu öndər Azərbaycana Mərkzədəki bir sıra dairələrdən olan qərəzli münasibətə baxmayaraq, siyasi idarəetmədə institulaşmanı "Azərbaycanlaşdırdı"! Bu, tarixi bir addım idi!

Bu tezisin fəlsəfəsini açmağa ehtiyac vardır. "İnstitut" sözünün latınca bir neçə mənanı ifadə etdiyi məlumdur, məsələn, "qaydalaşdırma", "adət" və s.). Siyasi institutlaşma üçün uyğun olanı, bizcə, "müəssisə"dir. Yəni siyasi fəaliyyətin, o cümlədən idarəetmənin vahid struktur-funksional orqanizm kimi işinin təşkili. Aydındır ki, bura müxtəlif təbiətli (məsələn, sosial, psixoloji, siyasi, mədəni və s.) faktorlar daxildir. Siyasi institulaşmada əsas məsələlərdən biri fəaliyyətin xarakterini, mexanizmlərini, niyyətləri, məqsədləri, metodları və strateji olaraq ideoloji sərhədləri müəyyən etməkdən ibarətdir. Anlaşılandır ki, hər bir tarixi mərhələdə siyasi institutlaşma mövcud siyasi rejimin özəllikləri ilə sıx bağlı olmalıdır. Əks halda hərc-mərclik yaranır. Sovet dönəmində də institulaşma SSRİ-nin dövlət kimi mahiyyətinə, məzmununa, ideoloji özəlliklərinə uyğun aparılırdı. Bu çərçivə daxilində ayrı-ayrı respublikalarda milli siyasi ənənəni (həm də idarəetmə və ideoloji aspektlərdə) təmin etmək çox çətin bir iş idi. Heydər Əliyev kadrları azrbaycanlaşdırmaqla sovet ideoloji çətiri altında dövlət idarəçiliyində milli ənənəni qorudu və onu çox aspektlərdə müasirləşdirdi. Məsələ ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti bu işin öhdəsindən vaxt çatışmazlığına görə gələ bilməmişdi. O zaman ilkin addımlar atıldı, müvafiq təməl qoyuldu, ümumi istiqamət müəyyənləşdi, lakin 1920-ci ilin 27 aprelində Sövet Rusiyasının işğalı bu prosesi dayandırdı və Azərbaycan müstəqil dövlətçilik yolundan uzaqlaşdırıldı. Bu çərçivədə Heydər Əliyev idarəetmədə və siyasi-ideoloji fəaliyyətdə "Azərbaycanlaşmanı" hay-küysüz, tədbirlə və ardıcıl şəkildə apardı. Siyasi institulaşmada "Azərbaycanlaşma" dövlətçilik ənənəsində əsas yerləri tutan ciddi nizam-intizam, milli dəyərlərə önəm vermək (mənəvi,

əxlaqi, dini və mədəni dəyərlərə sadiqlik fonunda müxtəlif tədbirlərin təşkili), dilin dövlət statusunu təmin etmək, asayişi qorumaq, sülhpərvər olmaq və başqa mədəni dəyərlərə açıq olmaq başlıca məqamları təşkil edirdi. Bütün bunlar institulaşmada Vətənçiliyi, öz xalqına hörməti, milli mədəniyyəti, ədəbiyyatı, folkloru saxlamağa imkan yaratdı. Bununla Heydər Əliyev iki tarixi vəzifənin öhdəsindən gəldi.

Birincisi, müasir tarixi mərhələdə Azərbaycanın cəmiyyət olaraq idarə edilməsi üçün dövlətçilik baxımından həlledici olan siyasi institutlaşmanı "Azərbaycanlaşma" çərçivəsində inkişaf etdirdi. Artıq XX əsrin 80-ci illərində Azərbaycanda dəqiq işləyən dövlət institutları vardı. İkincisi, siyasi instutlaşmada Azərbaycan Xalq Cümhuriyyətindən sonra qırılma riski yaranmış dövlət idarəetmə prosesinin müasir tələblər səviyyəsində davamlılığını təmin etdi. Bu da Birinci Respublikadan İkinci Respublikaya dövlətçilik ənənəsini faktiki daşıyan və Üçüncü Respublikada şəxsən praktiki olaraq artıq müstəqil dövlət çərçivəsində onu reallaşdıran Heydər Əliyevin böyük uğuru, Azərbaycan dövlətçilik ənənəsinin isə misilsiz qazancı idi.

Əlbəttə, bu prosesin siyasi, ideoloji və mədəni-mənəvi aspektlərini nəzərə almadan Heydər Əliyevin azərbaycançılıq konsepsiyasının məzmununu tam dərk etmək mümkün deyildir və bu səbəbdən də dövlətçilikdə siyasi varisliyin anlamını bütöv açmaq imkansızdır. Həmin bağlılıqda azərbaycançılığın dərin siyasi anlamı mövcuddur. Onun daha yüksək əhəmiyyəti siyasi varislik çərçivəsində özünü göstərməkdədir. Akademik Nizami Cəfərovun vurğuladığı kimi, Heydər Əliyev azərbacançılığı romantik və bədii-emosional müstəvidən ciddi siyasi-ideoloji məkana transformasiya edərək, XX əsrin son onilliyində Azərbaycan dövlətçiliyində ənənə, varislik və müasirliyin optimal sintezi formulunu yaratdı. (1) Məsələ ondan ibarətdir ki, Birinci Respublika praktiki olaraq birbaşa varisliyi təmin edə bilmədi. Onun banilərini hətta "xalq düşməni" elan etdilər. İkinci Respublikada Azərbaycan milli siyasi varisliyi legitim

təqdim edilə bilinmədi. Onu Heydər Əliyev fəaliyyətinin müxtəlif istiqamətlərində konkret faktorlarla saxladı. Üçüncü Respublikada isə, Ulu öndər artıq konkret mükəmməl siyasi-ideoloji sistem kimi nəzəri müddəaların praktiki tətbiqini reallaşdırmağa başladı. Burada siyasi varislik geniş mənada Azərbaycan dövlətçilik ənənəsini müasir şəraitdə adaptasiya etməklə müstəqil dövlət quruculuğunu uğurlu aparmaq iqtidarını ehtiva edir. Bunun üçün iki məsələni həll etmək lazım idi. Birincisi, siyasi varisin kimliyi müəyyən edilməli və o, yetişdirilməli idi. İkincisi, Azərbaycanı cəmiyyət və dövlət olaraq yeni mərhələdə dövlət quruculuğuna hazırlamaq gərək idi. Heydər Əliyev 1993-2003-cü illər ərzində hər iki vəzifənin öhdəsindən mükəmməl surətdə gələ bildi. Bir epizodu bu bağlılıqda xatırlayaq.

2003-cü il oktyabr ayının 1-də ABŞ-ın Klivlend xəstəxanasından Heydər Əliyev Azərbaycan xalqına müraciət etdi. Müraciətdə deyilirdi: "...görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var... öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm. Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". (2, s.249-250) Bu, hakimiyyətin kiməsə ötürülməsini ifadə edən adi müraciət deyil. Heydər Əliyev lakonik şəkildə müstəqil dövlətçiliklə bağlı üç aktual məsələni xalqa çatdırıb və onların

həlli istiqamətini göstərib. Birincisi, Heydər Əliyev xalqına anladır ki, dövlət quruculuğu ilə bağlı sistemli, davamlı və dərin düşünülmüş kursa malikdir və təəssüf ki, onları şəxsən başa çatdırmağa ömür vəfa etmir. İkincisi, illərdir yetişdirdiyi siyasi varisini təqdim edir. Göstərir siyasi varis şəxsiyyət olaraq yetkindir, tam hazırlıqlıdır. Siyasi varis müstəqil dövlət quruculuğunun incəliklərini mənimsəyib və bu yolda kifayət qədər qətiyyətli olacaq. Siyasi varis qlobal, regional və yerli siyasi mühiti gözəl bilir, yüksək səviyyədə təşəbbüskarlıqla çalışacaq. Üçüncüsü, Heydir Əliyev ifadə edir ki, onun başlıca məqsədi Azərbaycanda müstəqil dövləti saxlamaq və inkişaf etdirməkdir. Siyasi varis də məhz bu anlamda davamçı olacaq. Həmin aspektdə də varisin nəzərdə tutulan bütün planları reallaşdıracağına tam əminlik vardır. Bütün bunları nəzərə alaraq Azərbaycan xalqı siyasi varisi qəbul etməli, onun legitimlıliyini tanımalı, ətrafında sıx birləşərək dövlət quruculuğunu başa çatdırmalıdır! Təcrübə sübut edir ki, Heydər Əliyev siyasi varisi müəyyən etməkdə, onu uğurlu dövlət başçısı kimi hazırlamaqda və müstəqil dövlət quruculuğu konsepsiyasının əsas şərtlərini müəyyənləşdirməkdə qətiyyən yanılmayıb. Siyasi-nəzəri və fəlsəfi olaraq da burada məqsədə tam çatılıb.

Məsələ ondan ibarətdir ki, siyasi institutlaşmanın başlıca nəticəsi siyasi hakimiyyət institutlarını daimi formalaşdıran və yenidən formalaşdıran (təkmilləşmə və dəyişən şəraitə uyğun çevik mexanizm hazırlama bağlılığında) dayanıqlı mexanizmin yaradılması və onun cəmiyyətə qəbul etdirilməsidir. Bu, həm də vətəndaşların şüurunda siyasi davranışın konkret nümunələrini formalaşdırır, möhkəmlədir və onu aktuallaşdırır. Heydər Əliyevin azərbaycançılıq konsepsiyası bu məqsədin öhdəsindən siyasi institutlaşmanın substantiv və funksional aspektlərinin vəhdətinə nail olmaq aspekti ilə yanaşı, uğurlu siyasi varis modelini yaratmaq aspektində də öz səmərəsini təsdiq etməkdədir. Fəlsəfi-nəzəri və praktiki-siyasi fəaliyyət baxımından bu məqam müstəqil dövlət quruculuğu kontekstində prinsipial əhəmiyyət kəsb etməkdədir.

Beləliklə, Heydər Əliyev azərbaycançılıq çərçivəsində siyasi institutlaşmanın işlək modelini müəyyən edərək onu praktiki formalaşdırdı. Bu zaman dövlət idarəetmə institutları həm substantiv-funksional aspektdə özünütəşkil keyifiyyətinə malik oldu, həm də strateji olaraq siyasi varisliyi təmin etmək potensialını özündə saxladı. Bu iki aspektin sintezi üçün azərbaycançılığın mənəvi-mədəni, əxlaqi və dil parametləri işlək hala gətirilməli idi. Bu səbəbdən, azərbacançılıqda dilin dövlət statusunun daim möhkəmlənməsi və vahid Azərbaycan mədəniyyəti ideyasının reallaşdırılması öz planda idi. Ulu öndər Azərbaycan dilinin cəmiyyətdə statusunun daim inkişafı üçün çox ciddi addımlar atdı. Üçüncü Respublikaya rəhbərliyi dönəmində həmişə bu məsələnin aktuallığını vurğulayır və Azərbaycan dilində danışmağı təşviq edirdi. Heydər Əliyev açıq bildirirdi ki, dil məsələsi dövlətçilik və milliliklə sıx bağlıdır. Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dilində sərbəst, təmiz və dəqiq danışmalıdır. Ulu öndərin özü uzun illər rus dilindən istifadə etməsinə baxmayaraq Azərbaycan dilində danışanda bir dəfə də olsun yad kəlmədən istifadə etmədi. Bu, xalq üçün ən yaxşı nümunə idi və indi də təşviq edilməlidir. Azərbaycan mədəniyyətinin vahidliyini, möhtəşəmliyini və qədimliyini ancaq Azərbaycan dilini sevməklə, bu dildə səlis danışmaqla dərk etmək olar.

Ümumiyyətlə, Ulu öndər dil məsələsinə geniş mədəniyyət kontekstində baxırdı. Azərbaycançılıqda milliliklə beynəlmiləlin sintezinin daim vurğulanması da bununla bağlıdır. Heydər Əliyev milli mədəniyyəti mənimsəməyi bir vacib vəzifə kimi vətəndaşların qarşısına qoyurdu və həm də eyni zamanda, başqa mədəniyyətlərə də daim açıq olmağı təşviq edirdi. Bu, Azərbaycan dövlətçiliyində yerli ilə ümumbəşərinin vəhdətinin həmişə ciddi yer tutması ilə bağlıdır. Əks halda "Yurdda sülh, cahanda sülh" formulunu həyata keçirmək mümkün deyildir. Yəni azərbaycanlıların təbiətən tolerant, fərqli mədəniyyətlərə açıq olması real olaraq qədimdən qaynaqlanan ciddi dövlətçilik ənənəsinə dayanır.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

